***PEDAQOJİ FİKİR TARİXİ***
***ИСТОРИЯ ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ***
***HISTORY OF PEDAGOGICAL THOUGHT***

*UOT 37.01*

***Bibixanım Orucəli qızı İbadova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim*
*https://orcid.org/*-0000-0003-0768-9990
*https://doi.org/10.69682/azrt.2024.91(3).64-66*

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA TƏBİƏT

***Бибиханум Оруджали гызы Ибадова***
*заведующий отделом Института Образования Азербайджанской Республики,*
*доктор философии по педагогике, доцент, заслуженный учитель*

# ПРИРОДА В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ

***Bibikhanim Orujali Ibadova***
*associate professor,*
*head of the department of the Institute of Education of the Republic of Azerbaijan,*
*doctor of philosophy in pedagogy, Honored teacher*

# NATURE IN NIZAMI GANJAVI'S CREATIVITY

**Xülasə**. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərləri irəli sürülən ideyalar, məzmun zənginliyinə görə bu gün də aktualdır. Məqalədə Nizami Gəncəvinin yaradıcılığında təbiətə qayğıkeş münasibət, təbiət hadisələrinin elmi şəkildə əsaslandırılması, təbiətdə baş verən hadisələrin obrazların əhval-ruhiyyəsi ilə əlaqələndirilməsi və s. məsələlər araşdırılmış, əsərlərindən nümunələr verilmişdir. Həmçinin orta ümumtəhsil məktəblərində tədris olunan təbiət fənlərinin tədrisində Nizami Gəncəvinin əsərlərindən istifadənin imkanları göstərilmişdir.
***Açar sözlər:*** *zəngin irs, kainatın yaranması, təbiət hadisələri, bənzətmə, poema*

**Резюме.** Произведения гениального азербайджанского поэта Низами Гянджеви актуальны и сегодня благодаря богатству выдвинутых идей и содержания. В статье рассмотрено творческое отношение Низами Гянджеви к природе, научное обоснование природных явлений, связь природных явлений с настроением героев и т.д. Автором были исследованы вопросы, приведены образцы его работ. Также показаны возможности использования произведений Низами Гянджеви в преподавании естественных наук в средних общеобразовательных школах.
***Ключевые слова***: *богатое наследие, сотворение Вселенной, явления природы, сравнение, поэма*

**Summary.** The works of the genius Azerbaijani poet Nizami Ganjavi are still relevant today due to the richness of the ideas and content. In the article, it was investigated Nizami Ganjavi's creative attitude towards nature, scientific justification of natural phenomena, connection of natural phenomena with the mood of the characters, etc. examples of his works were given/ Also, there have been shown the possibilities of using Nizami Ganjavi's works in the teaching of scence lessons taught in secondary general education schools.
***Keywords***: *rich heritage, creation of the universe, natural phenomena, simile, poem*

Zəngin ədəbi irsə malik dahi şairimiz Nizami Gəncəvinin yaradıcılığı elə bir xəzinədir ki, hikmət dolu hər misrası, hər beyti sirli bir aləmi xatırladır. Hələ vaxtilə Hindistanın türkəsilli böyük şairi Əmir Xosrov Dəhləvi Nizami yaradıcılığını yüksək qiymətləndirərək yazırdı:

Nizami hər sözü demiş birinci,
Qoymamış cilasız qalsın bir inci.

İnsana və insanlığa yüksək dəyər verən şairin əsərlərində milli və bəşəri ideyalar, mənəvi-əxlaqi keyfiyyətlər o qədər dolğun ifadə olunmuşdur ki, əsrlər ötməsinə baxmayaraq hələ də aktuallığını itirməmişdir. O elə bir dühа, şəxsiyyət idi ki, bədii təxəyyülünün gücü ilə zamanı qabaqlamış və müxtəlif elm sahələrinə: riyaziyyat, fizika, kimya, təbiətşünaslıq, astronomiya, memarlıq və sairə dair əvəzsiz fikirlər söyləmişdir. Xüsusilə, dünyanın yaradılışı, bizi əhatə edən göy cisimləri haqqında fikirləri heyrətamiz dərəcədə düşündürücüdür. Bu baxımdan, “İskəndərnamə” əsərində “İskəndərin yeddi yunan filosofu ilə xəlvətə çəkilməsi" hissəsi diqqəti cəlb edir. Yunan filosoflarının Kainatın yaranması barədə fikirlərini əslində Nizaminin fəlsəfi baxışları kimi də dəyərləndirmək olar. Məsələn, alimlərdən Fərfuryusa görə, göy daim hərəkətdə, yer və torpaq isə sükunətdədir:

Maye olan hissə etdi hərəkət, Quru olan isə tapdı sükunət. Hərəkət eləyən - göy oldu, parlaq.

Sükunətdə qalan - bu yer, bu torpaq.
[4, s. 599]

İnsansevərliyi ilə tanınan böyük sənətkar təbiətə qarşı da humanist mövqedədir. Şair yurdunun təbiətini, təbii gözəlliklərini böyük ustalıqla, tükənməz sevgi ilə vəsf etmişdir. O, qəsidələrinin birində təbiətə məhəbbətini, onun qorunması ilə bağlı qayğılarını belə ifadə etmişdir:

Bu təbiət anamızdır, onu sevmək xoşdur,

Ana ardınca uşaq qəlbi məhəbbətdə olar.
[1, s. 81]

Göründüyü kimi, şair təbiəti ana qoynu ilə müqayisə edir, onu “ana” sözü ilə rövnəqləndirir.

“İskəndərnamə” əsərində Bərdəni tərif edərkən bu qədim şəhərimizi “gülüstan” adlandırır, onun təbiətini bənzərsiz boyalarla elə təsvir edir ki, oxuduqca göz önündə laləli dağların, yaşıl meşələrin, sakit axan çayların, bağlarda cəh-cəh vuran quşların tablosu canlanır. Şair vətənini şən, qayğıdan, kədərdən azad diyar kimi belə tərənnüm edir:

Səssizlik içində dincəlir gülşən, Torpağı silinmiş qayğı, kədərdən.... O yaşıl yerləri dolaşıb-gəzsən,

Şənlikdən başqa bir xəyal görməzsən.
[4, s.378]

Nizami ilin fəsillərini bütün gözəlliyi ilə canlandıran, oxucusuna sevdirən yüksək zövqlü qələm ustasıdır. O, məşhur “Leyli və Məcnun” poemasında baharın gəlişini belə təsvir edir:

Sərdi xalısını səhraya min gül, Bəzədi torpağı süsənlə sünbül, Ağacda qönçələr baxdı göz-gözə, Bənzədi qayğısız gülər bir üzə.

Qırmızı lalədən, sarı çiçəkdən,
Təbiət bir bayraq qaldırdı bilsən. [3, s.499]

Nizaminin yaradıcılığında təbiətin gözəllikləri ilə yanaşı, təbiət hadisələri də geniş əksini tapmış, onların xüsusiyyətləri bədii sözün qüdrətilə elmi əsaslarla açıqlanmışdır. “Xosrov və Şirin“ poemasında belə nümunələrə kifayət qədər yer verilmişdir

Dənizlər olmasa, yağmaz buluddan,
Yağış da yağmasa, yaranmaz ümman.
[3, s.379]

***

Dağlardan süzülüb axan hər bulaq
Dənizə qovuşar axırda ancaq.[4, s.591]

***

Elə ki bağlarda yarpaq tökülər,
Xəzan yellərindən gətirər xəbər. [3, s.388]

***

Zəlzələ zamanı yarılar dağlar,
Ucalar qorxsun ki, onlar tez uçar [3, s.398]

*******

Bu sakit dənizə bel bağlama, dur!
Adətinə görə, o, insan udur. [3, s.263]

*******

Nərgizin gözlərinə sürmə çəkər dan yeli,
Misə qızıl rəngini verən kimya deyilmi?
[3, s. 85]

“Təbiəti sevmək təkcə onun gözəlliklərindən zövq almaq deyil, onu qorumaq, qayğısına qalmaq da lazımdır” fikri Nizaminin əsərlərində bu və ya digər formada əksini tapmışdır.

“Sirlər xəzinəsi” əsərində hər bir canlını “inci” adlandıran şair insana müraciət edərək deyir:

Qan bahası istəyən çoxdur deyə can alma,
Can verməyə qüdrətin yoxdur deyə can alma. [2, s. 97] “Xosrov və Şirin” əsərində ağacların kəsilməsi, heyvanların ovlanmasına münasibətini o, müdrikcəsinə belə ifadə etmişdir:

Ağacı yıxanlar tez yıxılarlar,
Ovçunun axırı dilənçi olar. [3, s.407]

Təbiət və təbiət hadisələrinin canlıların həyatına təsiri də şairin diqqətindən yayınmamışdır. Bununla bağlı “İqbalnamə” əsərində yazır:

Bizim bu torpaqda hələ də çox var,
Heç ayaq dəyməmiş səhralar, dağlar.
Orda göyərtidən, sudan əsər yox,
İsti bərk istidir, soyuq bərk soyuq.
Bir yerdə göyərti bitməsə əgər,
Orda canlı məxluq necə ömr edər?
[4, s.633]

Qeyd etmək lazımdır ki, şair yaratdığı obrazların əhvali-ruhiyyəsini, keçirdiyi hiss-həyəcanları təbiət və təbiət hadisələri ilə əlaqələndirməklə çox maraqlı bənzətmələr yaratmışdır. Məsələn, “Xosrov və Şirin” əsərində Məhin Banunun Şirinə öyüd verərkən deyir:

Səbr etmək vaxtıdır, tələsmə barı, Sular çətin axar üzüyuxarı. [3, s.261]

Yaxud da Şirinin Xosrovla bağlı iztirablarını belə ifadə edir:

Xəstəyəm, yerim daş, yaramda tikan,
Gül dərməyə gedib, tikan dərmişəm.
[3, s.275]

“Leyli və Məcnun” əsərində “Payızın yetişməsi və Leylinin ölümü” hissəsində payızın gəlişi ilə “torpağa pay olar hər qızıl yarpaq” deyən şair Leylinin xəstələnməsini və dünyasını dəyişməsini təbiətə məxsus mənzərələr fonunda verir:

Payız bu tufanı qurduğu anda,
Qəlbən yaralandı bir gülüstan da.
Ucalıq taxtından Leyli düşərək,
Bir dərd quyusuna endi o mələk.
Sızladı bağrının baharı tel-tel,
Onun çırağına sillə vurdu yel. [3, s.614]

Göründüyü kimi, Nizami insan xarakterini, onun mahiyyətini təbiətlə qarşılıqlı əlaqədə aydınlaşdırmağa çalışmışdır. Məhz bu mövqedən yanaşaraq ümumtəhsil məktəblərində tədris edilən fənlərin şagirdlər tərəfindən mənimsədilməsində Nizaminin fikir dünyasından bəhrələnmək olduqca faydalı olardı. Fikrimizcə, şairin əsərlərindən seçilmiş Yer, təbiət və təbiət hadisələri ilə bağlı nümunələrdən V sinifdə “Təbiət” (V sinif: “Yer planeti Günəş sistemində”, “Təbii fəlakətlər”, ”Ətraf mühit və biz”), “Coğrafiya” (VI sinif: “Zəlzələ təbiət hadisəsidir”, “Zəlzələ zamanı nə etməli?”, “Təbiətdə suyun dövranı”), “Həyat bilgisi” (VII sinif: “Hərəkət materiyanın xassəsidir”, “Təbiətdəki qarşılıqlı təsirlər") və s. fənlərin tədrisində istifadə edilməsi məqsədəuyğundur.

**Problemin aktuallığı.** Nizami Gəncəvinin təbiətin gözəlliklərinə və qorunmasına verdiyi dəyər bu gün də aktualdır.

**Problemin yeniliyi.** Məqalədə Nizami Gəncəvinin əsərləri fərqli baxımdan, təbiət, təbiət hadisələri və insanın əhval-ruhiyyəsinin təbiət hadisələri ilə əlaqələndirməsi istiqamətində tədqiq edilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə müəllimlər, gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Nizami, Gəncəvi. Lirika / Nizami Gəncəvi –Bakı: Gənclik, –1980. –95 s.
2. Nizami, Gəncəvi. Sirlər xəzinəsi / Nizami Gəncəvi –Bakı: Yazıçı,-1981. –195 s.
3. Nizami, Gəncəvi. Əsərləri. [2 cilddə], c.1. Nizami Gəncəvi –Bakı: Şərq-Qərb, –2013. –780 s.
4. Nizami, Gəncəvi. Əsərləri, [2 cilddə] , / cild 2. / Nizami Gəncəvi –Bakı: Şərq-Qərb, – 2013. –764 s.


**E-mail:** b.ibadova@arti.edu.az
**Redaksiyaya daxil olub:** 10.05.2024